بسم الله الرحمن الرحيم

14 məsumun (ə) həyatı

# İmam Kazim (ə)



Kitabın adı: İmam Kazim (ə)
Tərcümə edən: Seyyid Zahir Cavadov
Çap tarixi: 2018
Çap növbəsi: Birinci
Tiraj: 1000

Издательство «Свет»
Типография «Махаон», 2018

ISBN 5-18-090518-3



Adı: Musa (ə)
Məşhur ləqəbi: Kazim
Künyəsi: Əbülhəsən
Atası: Cəfər (ə)
Anası: Həmidə
Doğum tarixi: 128-ci hicri-qəməri ili, 7 səfər
Doğulduğu yer: Əbva
İmamlıq müddəti: 35 il
Ömrü: 55 il
Şəhadət tarixi: 183-cü hicri-qəməri ili, 6, ya 25 rəcəb



Qatili: Harun (həzrəti zəhərləmişdir)
Dəfn yeri: İraqın Kazimeyn şəhəri

## İmam Kazimin (ə) viladəti

İmam Kazim (ə) hicrətin 128-ci (bəzi rəvayətlərə görə, 129-cu) ili, səfər ayının yeddisində bazar günü Məkkə və Mədinə arasında yerləşən Əbva adlı məntəqədə dünyaya gəlmişdir.

Atası imam Cəfər Sadiq (ə) bu körpənin dünyaya gəlməsinə çox sevinmiş və buyurmuşdur: “Allah-taala mənə elə bir oğul verib ki, məxluqatın ən yaxşıdır.” Həzrət Mədinəyə qayıtdıqdan sonra yeni doğulmuş körpəyə görə üç gün ziyafət vermişdir.

İmam Musa ibn Cəfərin (ə) münasib boyu, cazibəli görkəmi, sarışın və nurani siması, qara saçları var idi. Həzrətin çöhrəsində mənəviyyatı aydın müşahidə olunurdu.

## İmamın əzəməti

İmam Kazim (ə) iyirmi il atası imam Sadiqlə (ə) birgə yaşamış və o həzrətin hüzurunda böyümüş, tərbiyə almış, təqva dərsi öyrənmiş və örnəyə çevrilmişdir.
Həzrətdə heybət və əzəməti elə uşaqlıq çağlarından simasında görünürdü.
Yəqub Sərrac deyir: "İmam Sadiqin (ə) yanına getdim. Gördüm ki, həzrət beşikdə olan oğlu Musanın (ə) yanında dayanıb, onunla söhbət edir. Bir müddət onunla danışdı. İmamın söhbəti qurtardıqdan sonra irəli getdim. Bu vaxt mənə buyurdu: "Yaxın gəl, mövlana salam ver."
Onun yaxınlaşıb, salam verdim. O da səlis nitqlə mənim cavabımı verib, dedi: "Get, qızına qoyduğun adı dəyiş. Çünki Allahın xoşlamadığı bir addır."
Yəqub deyir: Bir qızım olmuşdu, adını Humeyra qoymuşdum.
İmam Sadiq (ə) buyurdu: "Əmrinə tabe ol ki, doğru yolu tutasan."
Mən də qızımın adını dəyişdim."



## İmam Kazimin (ə) uşaqlıq dövrü və Əbu Hənifənin əhvalatı

İmam Kazim (ə) elə uşaqlıq çağlarından ibadətlə məşğul olar, camaatla gözəl danışar və yaxşı davranardı; böyük güzəşti, mehribanlığı, səxavəti və digər gözəl əxlaqi xüsusiyyətləri var idi.
Onun nəzərində ən gözəl və dəyərli anlar, Allahla xəlvətdə raz-niyaz etdiyi anlar, Mədinədə ən yaxşı yer isə Peyğəmbərin (s) məscidi idi. Həzrət Məscidünnəbiyə (s) gedər, heybətli cüssəsilə uzun-uzadı namaz qılar, ibadət edərdi.
Bir gün Əbu Hənifə onun çox gözəl bir əhval-ruhiyyə ilə namaz qıldığını görür. O, Mədinədə böyük şəxslərindən bir idi və camaat arasında fəqih və alim kimi tanınır, həm də çoxlu ardıcılları var idi. Qarşısında yeniyetmə bir oğlanın belə həvəslə namaz qıldığını görəndə, bir qədər sükut içində heyrətləndi. Onu camaata göstərib, kim olduğunu

soruşdu. Dedilər ki, Cəfər Sadiqin (ə) oğlu Musadır.

Əbu Hənifə bir müddət Musanın (ə) namaz qılmağına tamaşa etdi. Həzrət namaza o qədər qərq olmuşdu ki, qarşısından keçən adamları görmürdü. Əbu Hənifə gülümsəyərək məsciddən çıxdı. O, imam Sadiqin (ə) evinə gəldi. İmam Sadiq (ə) Əbu Hənifəni tanıyırdı. Onu evə dəvət etdi. Əbu Hənifə dedi: Məsciddə oğlun Musanı gördüm. O namaz qılmağa məşğul idi, ancaq namaza elə qərq olmuşdu ki, önündən keçən insanları görmürdü və onlara heç diqqət etmirdi. Namaz qılan şəxs qarşısından get-gəl edənləri görməməli və onların öz qarşısından keçmələrinə mane olmamalıdırmı?

Əbu Hənifə bu kinayəli sözü ilə o həzrətin özü və oğlunun namazından nöqsan tutmaq istəyirdi.

İmam Sadiq (ə) yeniyetmə oğlu Musanı (ə) çağırdı və Əbu Hənifənin sözlərini ona çatdırdı.

Musa (ə) gülərüz halda belə cavab verdi: "Atacan! Əbu Hənifənin gördükləri doğrudur. Ancaq namazda diqqətimi yönəltdiyim Allah mənə o qədər yaxın idi ki, camaatın qarşımdan keçməyi aramızdakı rabitəni qırmırdı. Allah Qurani-kərimdə buyurur: Biz ona şah damarından da yaxınıq!"

İmam Sadiq (ə) oğlunun cavabına çox sevindi və təbəssüm etdi. Əbu Hənifə də Musanın (ə) sözlərinin doğru olmasını anladı və başa düşdü ki, əgər namazda bir kəsin diqqəti Allaha yönəlsə, camaatın gediş-gəlişi ona mane olmaz və diqqətini yayındıra bilməz.





## İmam Kazimin (ə) ailədə davranışı



İmam Kazimin (ə) davranışı hər yerdə olduğu kimi evdə və ailəsi arasında da Allahın buyurduğu kimi, cəddi Rəsulullahın (s), imam Əlinin (ə) və ata-babalarının yolu üzrə idi. Həzrət övladları və evinin adamları, qulluqçuları ilə çox mehriban və məhəbbətlə davranırdı. Aşağıda imam Kazimdən (ə) bir neçə rəvayət qeyd edilir ki, o rəvayətlərdə həzrət həyat yolunu öz ardıcıllarına öyrədir.

1. İmam Kazim (ə) həzrət Əlidən (ə) belə nəql edir: "Bir kişi iki övladı ilə birlikdə Peyğəmbəri-əkrəmin (s) yanına gəlir. Kişinin öz övladları ilə rəftarına diqqət edən Peyğəmbər (s) gördü ki, o, övladının birini öpür, o birisini yox. Həzrət onun bu davranışından narahat olub, buyurdu:

"Nə üçün onlarla bərabər rəftar etmirsən?!"...

2. İmam Kazim (ə) buyurur: Bir gün bir kişi övladı ilə birlikdə Peyğəmbərin (s) hüzuruna gəlib, dedi: "Ey Allahın rəsulu! Övladımın mənim üzərimdəki haqqı hansılardır? Peyğəmbər (s) buyurdu: "Ona yaxşı ad qoy və bəyənilən işlər tapşır."

3. Bir nəfər imam Kazimin (ə) yanına gələrək övladının onun sözünə baxmamasından şikayətləndi və övladını yaxşı tərbiyə etmək üçün imamdan məsləhət istədi. İmam ona buyurdu: "Övladını döymə və tənbeh üçün ondan küs. Ancaq ehtiyatlı ol ki, küsməyin çox çəkməsin."



## İmam Kazimin (ə) səxavəti

İmam Kazim (ə) əliaçıqlığı və səxavətinə görə xalq arasında məşhur idi. Belə ki, o həzrətin hətta bir dəfə min nəfər qulu azad etdiyi, çətin günlərdə onlara qayğı göstərdiyi, borclarını belə ödədiyi nəql edilir. Kimsəsizlər və yoxsullar fəqirlik bataqlığından qurtulmaq üçün ona sığınırdılar.

Tarixçilərin yekdilliklə yazdıqlarına əsasən, imam Kazim (ə) var-dövlətini, heç bir təşəkkür və minnətdarlığa ehtiyac duymadan Allah yolunda yoxsullara paylayırdı. Çox vaxt imam (ə) möhtaclara tanınmaz və məxfi



şəkildə yardım edirdi ki, təşəkkür etdikləri zaman onu tanımasınlar. Elə buna görə də, gecələr və hava qaranlıq olduğu zaman yoxsulların yanına gedərdi. Ehtiyac sahibi ehsan edənin kim olmasını bilmədiyi və haradan gəldiyi haqda məlumatı olmadığı halda, imamın səxavətindən bəhrələnirdi. Bəzən iki yüz və ya dörd yüz dinarlıq kisələri onlara sədəqə verirdi. Bu kisələrin ağırlığı və çoxluğu dillər əzbəri idi. Hətta, camaat arasında belə deyilirdi: “Musanın (ə) kisələrini alanın kasıblıqdan şikayətinə təəccüblənməmək olmaz.”

Bir yoxsul imam Kazimin (ə) yanına gəldi və yoxsulluqdan şikayətlənərək dedi:

- Əgər yüz dirhəmim olsaydı, onunla alver edərdim və kasıbçılıqdan yaxa qurtarardım. İmam təbəssümlə ona dedi:
- Səndən bir sual soruşacağam, əgər cavabını verə bilsən, istədiyindən on dəfə artığını sənə verməyə hazıram.”
- Soruşun.
- Əgər dünyada bir arzu etmək istəsən, nə arzulayarsan?”
- Arzu edərdim ki, Allah mənə elə yol açsın ki, din qardaşlarıma yardım edə bilim, canlarını düşmənin təhlükəsindən qoruyum.
- Nə üçün bizimlə dostluğu arzulamırsan?
- Bu dostluq və məhəbbət mənim vücudumdadır. Bu dostluğu mənim vücudumda qoyduğu üçün Allaha şükür edirəm. Ona görə də məndə olmayan bir şeyi arzu edirəm.
- Yaxşı cavab verdin. Əhsən sənə!

Sonra həzrət ona iki min dirhəm verib, məxsus bir maddənin alqı-satqısı ilə məşğul olmağı tapşırdı və ziyan görməyəcəyini bildirdi.

Yoxsul kişi imamın dediyi kimi də etdi və dolanışığı çox yaxşılaşdı.

## Ehtiyacı olanlara yardım

İsa ibn Məhəmməd ibn Muğis Mədinənin təcrübəli əkinçilərindən idi və ömründən doxsan il ötürdü. Deyir ki, Mədinənin ətrafında yemiş, xiyar və balqabaq becərdiyim sahəm var idi. Bəhər mövsümü çatdıqda, çəyirtkələr məhsuluma daraşıb, onları tamamilə yararsız hala saldılar. Mənə yüz iyirmi dinar, üstəlik iki dəvənin qiyməti məbləğində ziyan dəydi. Bu hadisədən sonra çox narahat və qəmgin oldum. Başıma gələnləri mövlam Musa ibn Cəfərə (ə) danışdım.

İmam (ə) buyurdu: “Nə qədər ziyan dəyib?”

Mən ziyanın məbləğini həzrətə dedim.



Ərəfə adlı xidmətçisi də imamın yanında idi. Həzrət üzünü Ərəfəyə tutub buyurdu: “İsa ibn Muğisə yüz əlli dinar və iki dəvə ver.”

Ərəfə imamın əmrini yerinə yetirdi.

İmamdan xahiş etdim ki, əkin sahəmə gəlib, mənim üçün dua etsin.

İmam hətta sahəmə gələrək məhsuldarlıq üçün dua etdi.

İbn Muğis deyir: Mən həmin dəvələrlə sahəmdə işlədim və vaxtlı-vaxtında oranı suvardım. Allah bərəkət verdi və mən bolluca məhsul götürdüm və ondan min dinar qazandım.



**Düşmənlərlə davranışı**

O zaman bəzilərinin Əhli-beytlə (ə) düşmənçiliyi iki səbəbdən idi:

1. Bir qrupun Əhli-beyt (ə) və həqiqi imamlar barədə düzgün anlayışı yox idi və onların (ə) əsl düşmənləri beləlérini həqiqətdən uzaq saxlayır, düzgün məlumatlanğa icazə vermirdilər. Ona görə də bu qrupa düzgün yol göstərildikdə, yaxud məsum imamlarla qarşılaşdıqda, onların davranışlarını görməklə hidayət olur, düşmənçilikdən əl çəkib, Əhli-beytin (ə) dostlarına çevrilirdilər.

2. Digər bir qrupun düşmənçiliyi isə inadkarlıq üzündən idi. Quranın təbirincə desək, həsəd, tayfa və qəbilə tərəfdarlığı bu mövzuda rol oynayırdı. Bu qrup düşmənlər bilərəkdən və məsum imamların şəxsiyyətləri barədə anlayışları olduğu halda onlarla düşmənçilik edirdi. Çünki onları özlərinin qanunsuz yollarla var-dövlətə, hakimiyyətə yiyələnmələrinə mane hesab edirdilər. Ona görə də onlarla düşmənçiliyə başlayır, mənfi təbliğatlarla camaatı onlara qarşı qaldırır, camaatın ürəyində Əhli-beytə (ə) qarşı kin-küdurət toxumu səpirdilər. Müaviyə kimi əməvi xəlifələri Əhli-beytə (ə), xüsusilə də imam Əliyə (ə) qarşı düşmənçilik toxumunu hətta uşaqlıq dövrlərindən başlayaraq camaat arasında səpir, vacib namazlardan sonra ona (ə) nalayiq sözlər deməyi vacib zikr kimi təbliğ edirdilər.

Məsum imamların bu iki qrupla davranış metodları fərqli idi. Birinci qrupa qarşı dözüm göstərir, müxtəlif üsullardan istifadə etməklə onları hidayət etməyə çalışırdılar. Ancaq ikinci qrupa qarşı isə sərt və kəskin mövqe tuturdular.

## Sirr

İmamın (ə) müasiri olan xəlifələrdən biri də Harun ər-Rəşiddir. Harun zülmkar və rəhimsiz bir adam idi. Onun Əli ibn Yəqtin adlı bir vəziri imam Kazimin (ə) ardıcıllarından idi.

Bir gün Əli ibn Yəqtinin imam Kazimlə (ə) çox mühüm bir işi var idi. Ancaq xəlifənin onun imamla əlaqəsindən xəbər tutmasını istəmirdi. Ona görə də dostlarından iki nəfəri çağırıb, onlara dedi: – Sürətli gedən iki dəvəyə minib, elə bu gün özünüzü Mədinəyə çatdırın. Mədinədə Musa ibn Cəfər Sadiqin (ə) evinə gedin, bu məktubları ona verin və cavabını alıb, gətirin. Ancaq ehtiyatlı olun ki, xəlifənin casusları sizi görməsin və sizin getməyinizdən xəbərdar olmasınlar. Yol boyu da heç kimlə danışmayın və sirrinizi açmayın.

Onlar sürətli gedən dəvəyə minərək Mədinəyə tərəf yola düşdülər. Heç kim onları görməsin deyə gecə yol getdilər. Bağdaddan Mədinəyə gedən yolda Kufəyə çatdılar. Kufədən çox uzaqlaşmamışdılar ki, birdən iki atlı göründü. Atlılar onlara tərəf gəlirdi. Əli ibn Yəqtinin adamları çox qorxdular və gələnlərin xəlifənin casusları olduğunu güman etdilər. Qaçmaq üçün yol axtarırdılar. Bu vaxt gələn atlılar onlara çatdılar. Atlılardan birinin başında yaşıl əmmamə var idi. Onun siması çox nurani idi və hörmətli şəxsə oxşayırdı. O atından yerə endi və salam verdi. Vəzirin adamları çox qorxmuşdu və titrək səslə onun salamını aldılar.

O dedi: "Mən Musa ibn Cəfərəm. Əli ibn Yəqtinin məktubunu mənə verin."

Əli ibn Yəqtinin elçiləri məktubu həzrətə verdilər. İmam geyiminin altından bir neçə məktub çıxararaq onlara verib, buyurdu: "Bunlar Əlinin məktublarının cavabıdır. Məktubları ona çatdırın."

İmam bunu deyib geri qayıtdı. Əli ibn Yəqtinin adamları heyrət içində





Bağdada yola düşdülər. Onlardan biri öz yoldaşına dedi: – Gördün, Musa ibn Cəfər hələ məktubu oxumamış onun cavabını vermişdi. Yoldaşı dedi: Hələ Kufəyə gəlməyini de! O, bizim Mədinəyə tərəf gəlməyimizi haradan bilirdi? Biz bu barədə heç kəslə danışmamışdıq.

Bəli, doğrudan da Allah imaməti və xalqa rəhbərliyi kimə tapşırmağı, keçmiş və gələcəkdən xəbərdar olmaq üçün Öz elmini kimə verdiyini yaxşı bilir!



## İmam Kazimin (ə) möcüzəsi

Şeyx Səduq imam Kazimin (ə) möcüzələri sırasında belə bir əhvalat nəql edir:

Bir dəfə Harun ər-Rəşid bir sehrbaz çağırdı ki, hazırladığı məclisdə iştirak etsin və imam Kazimi (ə) o məclisdə utandırsın. Süfrə açılıb, yemək süfrəyə qoyulandan sonra imamın (ə) xidmətçisi hər nə qədər süfrədən



çörək götürməyə cəhd etsə də, əlindən uzaqlaşırdı. Harun da bu hadisədən zövq alır, vəcdə gəlirdi.

İmam Kazim (ə) başını qaldırdı və pərdədə olan bir şir şəklinə baxıb, belə əmr etdi: “Ey Allahın şiri, tut Allahın düşmənini!”

Şirin şəkli imamın möcüzəsi ilə canlanaraq nəhəng bir yırtıcı kimi cadugəri parçaladı. Harun və məclisdəkilər vəhşətdən yerə yıxılıb, huşdan getdilər.

Nəhayət, hamı bir müddətdən sonra özlərinə gəldikdə, Harun imamdan (ə) xahiş etdi ki, cadugəri yenidən geriyə qaytarsın. İmam buyurdu: “Əgər Musanın əsası sehrbazların udduqları kəndirləri geri qaytarsa, şir də udduğunu geri qaytaracaq.”



## Fədəkin qaytarılması hadisəsi

Bir gün Harun ər-Rəşid imam Musa Kazimə (ə) dedi: Mən Fədəki sizə qaytarmaq istəyirəm, onu məndən təhvil al. İmam qəbul etmədi. Harun təkid etdi. İmam onun təkidini görüb, bir şərtlə Fədəki qəbul edəcəyini dedi.

İmam buyurdu:

- O şərtlə qəbul edirəm ki, Fədək üçün təyin etdiyim ərazini bütün hüdudları ilə verməlisən.

- Onun hüdudları hara qədərdir?

- Əgər sərhədlərini desəm, onu qaytarmayacaqsan.

- Cəddin Rəsulullahın (ə) haqqına and olsun, onu qaytaracağam.

- Onun birinci sərhədi Ədəndir.

Harun bunu eşidəndə rəngi dəyişdi.

İmam davam etdi: Onun ikinci sərhədi Səmərqənddir.

Burada Harun artıq yerindən qalxdı.

İmam buyurdu: Onun üçüncü sərhədi Afrikadır.

Harunun rəngi qaralmağa başladı.

İmam buyurdu: Onun dördüncü sərhədi Əlcəzair tərəfdən dəniz sahili boyu Romaya qədərdir.

Harun qəzəbini gizlədə bilməyib, dedi: Bu gedişlə bizə heç nə qalmır. Bəs, gəl, otur mənim yerimdə!

İmam buyurdu: Mən bilirdim ki, Fədəkin həqiqi sərhədlərini desəm, onu bizə verməzsən.

İmam bununla ona anlatmaq istəyirdi ki, siz vilayət məqamına, xalqa rəhbərliyə, ilahi hökmləri icrasına layiq deyilsiniz və hökuməti hiylə və zorla ələ keçirmisiniz.

## Şəhadət

İmam Kazimin (ə) dostları və tərəfdarları hər gün artmaqda idi. Bu, Harunu çox qorxudurdu. Odur ki, imamı zindana saldı və bir neçə dəfə zindanını dəyişdi, bir zindandan digərinə apardı, həzrətə çoxlu təzyiqlər göstərərək ağır şəraitdə saxladı.

Deməli, imam Musa ibn Cəfərin (ə) ömrünün çoxu zindanda keçdi. Bununla belə həzrət zindandan da öz tövsiyələrini şiələrə və möminlərə çatdırırdı.

İmam bu illər ərzində çoxlu dini bilik sahibləri yetişdirdi. Onların hər biri bu gün İslam dünyasının böyük alim və şəxsiyyətlərindən sayılır. Bura İbn Ümeyr, Səfvan ibn Yəhya, Əli ibn Yəqtin, Səfvan ibn Məhran kimiləri daxildir.



Harun görürdü ki, imamı zindana salmaqla öz məqsədinə çatmır. Bir gün imam Kazimi (ə) zəhərləmək haqqında göstəriş verdi. Nəhayət, imam zindanda bir nəfərin vasitəsilə zəhərləndi və hicrətin 183-cü ili, rəcəb ayının iyirmi beşində Bağdadda zindanda şəhid oldu.

Daha sonra şiələr imamı Kazimeyn şəhərində dəfn etdilər.



## O həzrətin kəlamlarından:

“Dünya malı dənizin (şor) suyu kimidir. Susuz adam bu sudan içdikcə daha da susayar, nəhayət, həlak olar.”

“Öz (din) qardaşının qeybətini edən şəxs məlundur.”

“Nəfsinlə cihad et ki, onu bihudə istəklərdən qoruyasan.”



# İmam Kazim (ə)

